***Səyyarə Məmmədli***

***Xocalı qaldı***

O gecə dəhşətdən dondu təbiət,
Qanlı dağ yumruğu qıcalı qaldı.
Dondu yarı yolda qışqırıq, fəryad,
Ah, fəğan göylərə ucalı qaldı.

Nə çatdı bizlərə fəryadı, səsi,
Nə də qorxunc röya oyatdı bizi.
Zamanın donduğu dağı, meşəsi
Donmuş körpə, cavan, qocalı qaldı.

Nə dağ var, Xocalı dağları kimi,
Nə qar var, fevralın al qarı kimi,
Sındırılan qəddi, vüqarı kimi
Sındı adı da, üç hecalı qaldı.

Qalıb sağ qalanı yurdu talanmış,
Qalıb qalan ömrü dərdə qalanmış,
Demə, hər müsibət, hər dərd yalanmış,
Yadda daha betər "Xocalı" qaldı.

***Məmmədli S. Xocalı qaldı : şeir // Yalnız qələm dözür ağırlığıma. - Bakı : Vektor Nəşlər evi, 2014. – S.48.***